**UOT 1(09)**

# TOLERANTLIQ FENOMENİNİN ARAŞDIRILMASININ KONSEPTUAL ƏSASLARI

**Gülçin Mehdiyeva**
Dissertant,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
gulcinmehtiyeva@gmail.com
DOI:10.30546/ifs.2021.1(36).118

**Xülasə.** Məqalədə tolerantlıq fenomeninin konseptual əsasları sosial-fəlsəfi aspektdən araşdırılmışdır.Müəllif tolerantlığı müxtəlifliyin mövcudluğunun təminatçısı kimi, problemə müasir elmi yanaşma nöqteyi-nəzərdən tədqiq etmiş, dini tolerantlığın prinsip-lərinin, sosial tolerantlığın funksiyalarının fəlsəfi mahiyyətini şərh etmişdir. Qeyd edilmişdir ki, tolerantlıq mədəniyyəti bu gün milli, siyasi, mənəvi, dini şüurun yeni formasına çevrilir, o, yalnız ideya, obraz deyil, həm də praktiki davranış əməlidir. Tolerantlığın parametrlərinə təsir edən amillər – insanların yaşadıqları ümumi sosial şərait, konkret birliyin, fərdin olduğu mühit, spesifik şəxsiyyətlərarası mədəniyyət və sosial münasibətlər tipidir. Tolerantlığın antipodu olan intolerantlıq arasında dialektik əlaqə vardır. İntolerantlıq zorakılıq, təcavüz, ksenofobiya, dini və milli qruplar arasında düşmənçiliyi ifadə edir.Tolerantlıq probleminin fəlsəfə tərəfindən öyrənilməsinin spesifikliyi ondadır ki, bu elm sahəsi həmin məsələni təkcə insanlararası deyil, mədəniyyətlərarası, sivilaziyasalararası, həm də xalqlararası və millətlərarası, dinlərarasıetniklərarası, partiyalararası, genderarası, yaşlararası münasibət kimi, hərtərəfli, sistemli şərh edir. Bu baxımdan tolerantlıq ideyası müəyyən ictimai-mənəvi, fəlsəfi kateqoriya olmaqla yanaşı, bəşər cəmiyyətinin sosial təşkilinin bütün səviyyələrində təzahür edən fərqli növləri, formaları olan, mədəni, etnik, dini tolerantlıq kimi çıxış edən mürəkkəb hadisədir. Tolerantlığın minimum və maksimum səviyyələri vardır. Tolerantlığın subyektləri müxtəlif fərdlər, sosial qruplar, ictimai institutlardır. Tolerantlığın predmeti maraqları uzlaşan, qarşılıqlı anlaşma və kompromislərin axtarışında olan insan bilikləridir.

**Açar sözlər:** tolerantlıq, fenomen, fəlsəfə, dini tolerantlıq, mədəni müxtəliflik, özünüifadə formaları, dözümlülük, bərabərlik, vəhdət, zorakılıq.

**Məqalənin məqsədi** tolerantlıq fenomeninin araşdırılmasının konseptual əsaslarını tədqiq etməkdir.

**Məqalənin elmi baza əsasını** tolerant probleminin tədqiqinə həsr olunmuş ölkə və xarici alimlərin əsərləridir.

**Məqalənin metodologiyası.** Məqalədə dialektik, hermenevtik metodlardan, elmlərarası, struktur-funksional, sistemli yanaşmalardan, tarixlik prinsipindən, analiz və sintez, analogiya, təsnifatlaşdirma və ümumiləşdirmədən də istifadə olunmuşdur.

**Məqalənin elmi yeniliyi** Tolerantlıq sağlam cəmiyyətin qurulması üçün zəruri olan mənəvi, sosial-siyasi, etnik və dini dəyərlər kimi müəyyənləşdiril-mişdir. Tolerantlıq anlayışının məzmunu cəmiyyətin inkişafı prosesində genişlən-miş, yeni əlamətlər və xüsusiyyətlərlə zənginləşdirilmişdir. Etnik-milli, dini tolerantlıq və intolerantlıq məsələləri şərh olunmuşdur. Məqalədə tolerant şüurun formalaşması, ictimai institutların kütləvi şüurda tolerantlığın təşəkkülünə təsiri imkanları və hüdudları təhlil edilmişdir.

**Məqalənin nəzəri və praktiki əhəmiyyəti** ondadır ki, məqalənin müddəaları tolerantlığın fəlsəfi anlamını genişləndirir.Tədqiqatın nəticələri problemin daha dərindən öyrənilməsi üçün əsasdır.

# КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ ИССЛЕДОВАНИЯ ФЕНОМЕНА ТОЛЕРАНТНОСТИ

**Гюльчин Мехдиева**

**Аннотация**. В статье исследуются концептуальные основы феномена толерантности с социально-философской точки зрения. Автор изучает современные научные подходы к проблеме толерантности как гаранта разнообразия, комментирует философскую сущность принципов религиозной толерантности, функции социальной толерантности. Было отмечено, что сегодня культура толерантности становится новой формой национального, политического, духовного, религиозного сознания, это не только идея, образ, но и акт практического поведения. Факторы, влияющие на параметры толерантности, - это общие социальные условия, в которых живут люди, конкретное сообщество, среда, в которой живет человек, конкретный тип межличностной культуры и социальных отношений. Специфика изучения проблемы толерантности философией состоит в том, что данная область науки трактует данную проблему не только между людьми, но и между культурами, цивилизациями, а также межнациональными и межэтническими, межрелигиозными, межэтническими, межпартийными, а также пол и возрастные отношения. С этой точки зрения идея толерантности является не только определенной социально-духовной, философской категорией, но и сложным явлением с разными типами и формами культурной, этнической и религиозной толерантности, проявляющимся на всех уровнях социальной жизни.

**Ключевые слова:** толерантность, явление, философия, религиозная толерантность, культурное разнообразие, формы самовыражения, толерантность, равенство, единство, насилие.

# CONCEPTUAL FRAMEWORK FOR THE STUDY OF THE PHENOMENON OF TOLERANCE

**Gulchin Mehdieva**

**Abstract.** The article examines the conceptual foundations of the phenomenon of tolerance from a socio-philosophical point of view. The author studies modern scientific approaches to the problem of tolerance as a guarantor of diversity, comments on the philosophical essence of the principles of religious tolerance, the function of social tolerance. It was noted that today the culture of tolerance is becoming a new form of national, political, spiritual, religious consciousness; it is not only an idea, an image, but also an act of practical behavior. The factors affecting the parameters of tolerance are the general social conditions in which people live, a specific community, the environment in which a person lives, a specific type of interpersonal culture and social relations. The specificity of studying the problem of tolerance by philosophy is that this area of science interprets this problem not only between people, but also between cultures, civilizations, as well as interethnic and interethnic, interreligious, interethnic, interparty, as well as gender and age relations. From this point of view, the idea of tolerance is not only a certain socio-spiritual, philosophical category, but also a complex phenomenon with different types and forms of cultural, ethnic and religious tolerance, manifested at all levels of social life.

**Keywords:** tolerance, phenomenon, philosophy, religious tolerance, cultural diversity, forms of self-expression, tolerance, equality, unity, violence.

## Giriş/İntroduction

Cəmiyyətdə tolerant şüur və davranışın formalaşması müasir etnokonfessional münasibətlər sahəsində tolerantlıq dəyərlərinin üzə çıxarılması və öyrənilməsi, onun sosial fəlsəfənin mühüm tədqiqat obyektinə çevrilməsi müair dövrün aktual məsələlərindəndir. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu üçün zəruri baza dəyərlərindən biri məhz tolerantlıqdır. Nəzərə almaq lazımdır ki, müxtəlif regionlarda tolerantlıq və intolerantlığın özünün spesifik formaları, təzahür dərəcəsi və xarakteri vardır.

Problemin işlənmə dərəcəsinə gəldikdə tədqiq olunan mövzu bir sıra elmlərin – fəlsəfə, kulturologiya, politologiya və s. qovuşmasında öyrənilən elmlərarası tədqiqat obyektidir. Hər bir elmi istiqamət tolerantlıq probleminə özünəməxsus nəzəri, metodoloji aspektdən yanaşır. Tədqiqatçılardan bəziləri G.İsmayılov, O.V.Beseçetnova, A.A.Karablyova, O.V.Padukoviç, A.V.Xujnyakov tolerantlığın mahiyyətini, ona elmlərarası yanaşmaları, himanitar elmin tədqiqat, öyrənilmə obyekti olmasını, çoxmədəniyyətli cəmiyyətdə dəyər kimi, tolerantlıq anlayışı haqqında təsəvvürlərin təkamülü, problemin müxtəlif aspektlərini araşdırmışlar.

Tədqiqatçı M.Rzayev Qərb-Şərq mədəniyyətlər sistemində tolerantlıq şüuru problemini, İ.Kuçuradi isə tolerantlığa fəlsəfi yanaşmanı, D.Z.Mutagirov ksenofobiya məsələsini tədqiq etmişlər.

Bu tədqiqatlarda alimlər tolerantlıq prinsiplərinin reallaşdırılmasını, müxtəlif ictimai sistemlər tiplərində tolerantlıq məsələlərini təhlil etmiş, eyni zamanda tolerantlığın hüdudlarını müəyyənləşdirmişlər. “Tolerantlıq” anlayışı fəlsəfi aspektdən tədqiq olunmuş, etnik, dini tolerantlıq və intolerantlıq məsələləri də şərh olunmuşdur.

Çoxmədəniyyətli və polietnik dünyada insanların, millətlərin, dövlətlərin ağıllı birgəyaşayış problemi fəlsəfə, politologiya, sosiologiya, beynəlxalq hüquq kimi, demək olar ki, bütün müasir humanitar elmlərdən diversifikasiya vektorunun müzakirəsini və aşkar edilməsini tələb edir. Bir elmin metodoloji çərçivəsində dünya nizamının gələcəyi və onun sabit təminat şərtləri ilə bağlı suallara cavab tapmaq böyük və çətin problemdir.

Beynəlxalq Fəlsəfə Cəmiyyətləri Federasiyasının prezidenti İoan Kuçuradi bəşəriyyətin qarşısında duran problemələri və onların həlli üçün konseptual yanaşmalar hazırlayan elm kimi fəlsəfənin qarşısında aşağıdakı vəzifələri göstərdi:

- “Fəlsəfi refleksiyanın kontekstindəki “dünya problemləri”nin əsasını təşkil edən konsepsiyanı, məzmunu və ideyaları yenidən düşünmək lazımdır. Çünki XX əsrin ikinci yarısının təcrübəsini yönləndirən bəzi ideyalar ilkin niyyətlərdən fərqli olan proqnozlaşdırılmayan nəticələrə gətirib çıxartdı.
- Dünya problemlərinin həllində fəlsəfənin rolunun konseptuallaşması və metodologiyasının müəyyənləşdirilməsi üçün bir vasitə kimi təyin edilməsi zərurətdir. [6,10] Buradan aydın olur ki, bütün bu problemlərin qeyd edilməsi kifayət deyildir,həm də bu cür çıxılmaz vəziyyətlərdən çıxış yollarının tapılması zərurəti ön plana keçməlidir. Üçüncü nəsil hüquqlardan, inkişaf, sülh, insan hüquqları, demokratikləşmə və s. dünya problemlərindən bəhs edən İ.Kuçuradi faktların izah edilməsilə yanaşı onların həlli üçün nəzərdə tutulan yolların dərin empirik əsaslandırmasına ehtiyac duyulduğunu da diqqətə çatdırır.

## Əsas hissə/Main part

### Tolerantlıq müxtəlifliyin mövcudluğunun təminatçısı kimi

Müasir dövrdə elmin və texnikanın sürətli inkişafı, dünyanın qloballaşması əsrində, fəlsəfə elmi vəziyyəti düzgün qiymətləndirməyi bacarır, real, tarixi-unikal şərait və insan hüquqlarına dair biliklərin arasında əlaqələr yarada bilir, dünya problemləri və bəşəriyyətə qarşı yeni təhdidlər kontekstindəki mövcudluğu təhlil edərək belə qənaətə gəlir ki, bu şərait insanın, xalqların və millətlərin hüquqlarının pozulmasına gətirib çıxarır [6,10].

Müasir dövrdə tolerantlıq “müxtəlifliyin mövcudluğuna təminat verən hüquqi borc və mədəni

tələbat kimi" təqdim edilir: "Mədəniyyətin mühüm elementi olan tolerantlıq bu gün müxtəlif inanc, mədəni ənənə, siyasi məslək daşıyıcısı olan insanların ictimai birliyinin zəruri şərti kimi qəbul olunur. Eyni zamanda, tolerantlıq vətəndaş cəmiyyətinin əsas əxlaq prinsipidir. Əslində, dünya mədəniyyəti və fəlsəfəsində tolerantlıq anlayışı antik dövrlərdən tətbiq olunmağa başlamışdır...Amma təbii ki, o vaxtın anlayış və sosial mədəniyyət fenomenləri bu günkündən çox fərqlənirdi." [1,13]Burada adı çəkilən tədqiqatçı tolerantlığın qədim və müasir anlamının fərqini izah etməklə yanaşı dini, milli, siyasi, sosial, mədəni və dini tolerantlığın mahiyyətini də araşdırmışdır.

Tolerantlığın fəlsəfi aspektdən təhlili göstərir ki, o, özündə milli mədəniyyətlərin keyfiyyət səviyyəsini-mənəvi, siyasi, hüquqi cəhətlərini əks etdirir. Tolerantlıq müxtəlif formalarda:şəxsi, ictimai (əxlaqda, hüquqda, adətlərdə, ictimai psixologiyada öz əksini tapan), dövlət (qanunvericilikdə, siyasi təcrübədə təcəssüm olunan) formalarında təzahür edir" [3,42] Mədəni tolerantlığın əsas tələbləri aşağıdakılardır: "Hər bir vətəndaşın, ictimai qrupun, cəmiyyətin sərbəst seçdiyi mənəvi, sosial-siyasi, dünyagörüşünü üstün tutması digərlərin buna bənzər seçiminə loyal, dözümlü münasibət bəslənilməsini, ona hörmət edilməsini tələb edir" [3,43] Buradan aydın olur ki, milli mədəniyyətlərdə tolerantlıq ideyalarının əsas komponentlərindən biri mədəni müxtəlifliyin, digərlərinin baxışlarının adət-ənənələrinin, mədəni dəyərlərinin qəbul edilməsini, anlaşılmasını ifadə etməsidir.Həmçinin diqqəti cəlb edən odur ki, tolerantlıq unikal dünya dəyəri olaraq özündə milli və ümumbəşəri mənəvi sərvətləri inteqrasiya edən, qlobal mədəniyyətin əsasını təşkil edən mürəkkəb bir fenomendir.

Araşdırmalar nəticəsində belə qənaətə gəlmək olur ki, tolerantlığa marağın artması bir tərəfdən modernləşmə şəraitində inkişaf edən sosial təcrübənin tələbatları ilə, digər tərəfdən dözümlülüyün müxtəlif təzahürlərinin yaranması ilə şərtlənir. Adətən tolerantlıq termini ictimai həyatda din, mədəniyyət, siyasət, əxlaq və mənəviyyat sahələrində problemlər yarandıqda tətbiq edilir. Bununla da tolerantlıq və intolerantlığın ümumi növləri siyasi, irqi, etnik, dini, ideoloji, nəsillərarası, gender, şəxsiyyətlərarası, mədəniyyətlərarası, dinlərarası, sosial-iqtisadi sahələrdə yaranmış olur. Həm də çoxmədəniyyətli cəmiyyətlərdə tolerantlığın tətbiqi ona görə aktuallıq kəsb edir ki, burada dözümlülüyün obyektləri məhz konkret etnosların, dinlərin və mədəniyyətlərin nümayəndələridir.

**Tolerantlıq fenomeninin öyrənilməsinin müasir fəlsəfi əsasları**

Tolerantlıq fenomeninin öyrənilməsinə müasir tədqiqatçılar əsaslı töhfə vermişlər. Onlar öz əsərlərində tolerantlığın digər mədəniyyət fenomenlərilə qarşılıqlı münasibətlərini təhlil edərək onun meyarlarını aşağıdakı kimi qruplaşdırmışlar: "1) bərabərhüquqluluq; 2) cəmiyyətin üzvləri arasında qarşılıqlı hörmət; 3) sosiumu təşkil edən fərdlərin siyasi həyatda iştirak etməsi üçün bərabər imkanların yaradılması; 4) milli azlıqların dillərinin və mədəni özünəməxsusluqlarının qorunub saxlanması və inkişaf etdirilməsi; 5) ictimai xarakterli hadisələrin, əksər insanların dini etiqadları və mədəni dəyərlərilə ziddiyyət təşkil etməyən mənəvi sərvətlərinnin qavranılması; 6) cəmiyyətdə təmsil olunan bütün mədəniyyətlərin nümayəndələrinə öz ənənələrinə riayət edilməsinə imkan verilməsi; 7) etiqad azadlığının təmin edilməsi; 8) ümumi problemlərin həllində əməkdaşlıq və həmrəyliyin yaradılması" [8,73]. Burada mədəniyyətlərarası münasibətlərdə təşəkkül tapan tolerantlığın mədəni müxtəlifliyə hörmət edilməsi, onun qəbul edilməsi və inkişaf etdirilməsi kimi çıxış etməsi diqqəti cəlb edir. Həmin fenomendə bərabərliyin əsas götürülməsi, birtərəfli üstünlükdən, ayrı-seçkilik, zorakılıq və dözümlülükdən imtina edilməsi, bəşər mədəniyyətinin çoxcəhətliyi və müxtəlifliyinin qəbul edilməsi, yekcinsliyin yaradılmasına qarşı çıxılması əsas yer tutur.Diqqəti çəkən məqam odur ki, tolerantlılıq bütün maraqlı tərəflərin mövqeyinin fəallığını və qarşılıqlı əlaqəsini tələb edir. Həm də əsas məsələ odur ki, mədəni tolerantlıq heç də öz mədəniyyətlərindən imtina edilməsi demək deyildir, ümumbəşəri, universal humanist dəyərlərin, xalqların həmrəyliyinin qəbul edilməsidir.

Müasir dövrdə çoxmillətli, çoxdilli, bir sözlə çoxmədəniyyətli dövlətlərin inkişafında tolerantlıq fəlsəfəsi multikultural dəyərlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət kəsb edir. Bu gün dünyada baş verən qlobal transformasiya, modernləşmə, inteqrasiya prosesləri, mədəni pluralizm, dialoq mədəniyyətinin zəruriliiyi sosial fəlsəfədə tolerantlığın multikultural dəyər kimi rolunu artırır:

- Mədəni müxtəlifliyə, başqa xalqlara, onların mədəniyyətlərinə, adət-ənənələrinə, dinlərinə, dillərinə dözümlü münasibət yaranır;

- Vətəndaş cəmiyyəti və hüquqi dövlətin formalaşdırılması və inkişafının mənəvi əsası olaraq çıxış edir;

- Cəmiyyət və şəxsiyyətin həyat fəaliyyətinin bütün sahələrinə təsir edir.

Tolerantlıq fəlsəfi multikultural dəyər kimi özündə azadlıq, müxtəliflik, faydalılıq və mənəvi kamillik kimi keyfiyyətləri birləşdirir.

Müasir tolerant insan mədəni, milli, dini, elmi və digər baxış və təsəvvürlərin müxtəlifliyi şəraitində yaşamaq məcburiyyətindədir.

Bəzən multikultural və çoxmədəniyyətli cəmiyyətləri sinonim kimi işlədirlər. Lakin multikultural cəmiyyətdə mədəniyyətlərin çoxluğu nəzərdə tutulmur, bu tip cəmiyyətdə müxtəlifliyin mübadiləsinin tənzimlənməsi əsas yer tutur. Çoxmədəniyyətli cəmiyyət kateqoriyasının məzmununa "əhalinin müxtəlif təbəqələrinin, peşə, yaş, davranış, təfəkkür, ictimai həyat formalarının qavranılması təcrübəsi"[4,23] daxil edilir. Bu halda çoxmədəniyyətli cəmiyyət müxtəlif etnik, dini, irqi, ictimai qruplar və təbəqələrin həyat fəaliyyətinin müəyyən bir ərazidə təşkil olunan məkanıdır. Belə cəmiyyətləri polietnik və ya çoxmillətli cəmiyyət də adlandırırlar. Çoxmədəniyyətli, multikultural cəmiyyətlərdən və dövlətlərdən fərqli olaraq monomədəni və ya monoetnik sosiumlar və ölkələr öz dağıdıcılığı, qeyri-humanistliyi, qanunlarının qəddarlığı və zorakılığı ilə seçilir. Belə ölkələrdən biri Ermənistandır. Bu ölkədə demək olar ki, milli azlıqlar yox dərəcəsindədir və yüksək vəzifələrə yalnız etnik ermənilər təyin olunur.

Tolerantlıq bir-birindən fərqlənən insanların ahəngdar, dinc yanaşı yaşamasını, ictimai plüralizmi, baxışların müxtəlifliyini təmin edir; milli azlıqların münasibətində toxunulmazlığa və qeyri-zorakılığa sosial təminat üçün şərait yaradır. İnsanları bərabərhüquqlu münasibətə, qarşılıqlı hörmətə və azadlığa istiqamətləndirir.

Tolerantlığın klassik konsepsiyaları aşağıdakılardır:

- Tolerantlığın liberal paradiqması;
- Tolerantlığın təbii-hüquqi konsepsiyaları;
- Tolerantlığın utilitar modeli.

"Tolerantlıq" anlayışının geniş şərhinə də təsadüf olunur: "Müsbət mənada tolerantlığın sinonimləri mərhəmət, iltifat, xeyirxahlıq, insan həmrəyliyi, çoxmədəniyyətliliyə hörmət, antipodları isə dözümsüzlük, dini və siyasi fanatizm, irqçilik, qeyri-normal genofobiya və ayrı-seçkiliyin çoxsaylı təzahürləridir."[7,5] Bir sözlə, tolerantlıq tarixi ənənələri və təcrübəni, ictimai şüurun rasionallaşmasını, başqalarına, onun dini, milli mədəni baxışlarına hörməti, sosial qarşılıqlı münasibətlər, ideal prinsiplərini, birgəyaşayışı, həmrəyliyi, ədalətliliyi, həmrəyliyi, kompromisi özündə əks etdirir.

Azərbaycan tədqiqatçısı M.Rzayev Şərq və Qərb mədəniyyətində tolerantlıq şüurunu müqayisə edərək belə qənaətə gəlmişdir ki, "yaranmış dözümlülük şəraiti və mühiti, demokratikləşmə, fikir plüralizminə, sərbəst mənəvi yaradıcılığa geniş meydan verilməsi, müasir şəraitin dialoqluluq və kommunikativlik kimi keyfiyyətlər tolerantlıq şüurunun formalaşması prosesini daha da sürətləndirir."[2,285]

Müəllif haqlı olaraq qeyd edir ki, cəmiyyətin siyasi və mədəni sahələrində reallaşan tolerantlıq şüuru Şərq-Qərb qarşıdurmasını aradan qaldıran, liberal-demokratik dəyərləri möhkəmləndirən, sivilizasiyalararası, mədəniyyətlərarası və dinlərarası dialoqu təmin edən bir vasitədir.

**Dinlərarası tolerantlığın əsas prinsipləri**. Dini sahədə konfessiyalararası tolerantlığın əsas prinsipləri aşağıdakılardır:

- Vicdan azadlığı;
- Dini təşkilatlar və qruplar arasında münasibətlərdə dialoq;
- Dini əqidələrin yayılması zamanı əksəriyyətin, o cümlədən azlıqların hüquqlarının qorunması;
- Bu və ya digər dinlərlə əlaqədar yalan, təxribat xarakterli bəyanatların istisna olunması;
- Dini baxış və əqidələrin yayılmasının qeyri-mütləqliyi;
- Dini zəmində münaqişələr zamanı barışıq yolunun axtarılması.

Bu hallarda dövlət demokratik üsullarla sosial qaydalar yaradır, azlıqların hüquqlarını müdafiə

edir, vətəndaş cəmiyyətinin inkişafına yardım edir, onun təsisatları ilə dialoq yaradır.

Dövlətin sosial siyasəti aşağıdakı prinsiplərə əsaslandıqda tolerant mahiyyət kəsb edir:

- Heç bir fərq qoymadan dini və milli mənsubluğa əsaslanan ümumi tarixi-mədəni, ictimai-siyasi dəyərlərin inkişafına yardım edilməsi;
- Müxtəlif millətlərin, etnosların, dini etiqad nümayəndələrinin hüquq və azadlıqlarının bərabərliyinin təmin edilməsi;
- Müxtəlif mədəniyyətlərin nümayəndələrinin bərabərhüquqluluğu və s.”[5,104-105]

**Sosial tolerantlığın funksiyaları.**

Sosial tolerantlıq müxtəlif funksiyaları yerinə yetirir. Rusiyalı tədqiqatçı O.Xujinyak özünün “Tolerantlığın labirintləri” monoqrafiyasında tolerantlığın konkret sosiumda reallaşdırdığı aşağıdakı funksiyaları fərqləndirir:

1. Sosial-inteqrasion funksiya;
2. İdentifikasion funksiya;
3. Humanitar funksiya;
4. Qrupyaradıcı funksiya;
5. Tənzimləyici funksiya.

Dövlətin müxtəlif aksiyalarının legitimləşdirilməsi vasitəsi funksiyası.[9,47-50] Bütün funksiyaları geniş şərh edən müəllif onun geniş sahələri əhatə etdiyini göstərir. Sosial tolerantlıq mədəniyyəti bir çox göstəricilərlə müəyyən edilir. Onlardan milli tolerantlıq, cəmiyyətin dəyər-normativ vəhdəti, dövlət və cəmiyyətdə sabitlik, insan hüquqlarının müdafiəsinə riayət edilməsi, hakimiyyət strukturlarına vətəndaş cəmiyyəti institutlarına etimad səviyyələrini göstərmək olar. Tolerantlıq fəlsəfi multikultural dəyərlər sisteminin tərkib hissəsi kimi aşağıdakı funksiyaları yerinə yetirir:

- Psixoloji funksiya – cəmiyyətdə əlverişli psixoloji mühit yaradır (etibarlılıq, hörmət, qəbul etmə, yardım); etnik özünüdərketməni formalaşdırır və inkişaf etdirir; etnik və sosial özünüidentikləşməni təmin edir və s.;

- Tərbiyəvi funksiya – sosial qarşılıqlı təsirin konstruktiv təcrübəsini, sosiallaşmanı uğurla təmin edir; əxlaq-şüurunu, başqalarının dərdinə şərik olmaq hissini, başqalarının davranışlarını loyal qiymətləndirmək bacarığını inkişaf etdirir;

- Sosial-kommunikativ funksiya – müxtəlif dünyagörüş nümayəndələrini, əməkdaşlığı və anlaşmanı inkişaf etdirir; münaqişəli şəraitdən konstruktiv çıxışı təmin edir;

- Kreativ funksiya – yaradıcı fəallığı təmin edir; şəxsiyyətin yaradıcı özünütəsdiqi üçün şərait yaradır.” [4, 25] Buradan aydın olur ki, tolerantlığı multikultural dəyər kimi şəxsiyyətin şüuru və davranışı səciyyəsində, insan fəaliyyətinin humanist istiqaməti, sosial mənəvi sərvətlər kontektində nəzərdən keçirmək olar.

Beləliklə, tolerantlıq elmlərarası yanaşmalar çərçivəsində öyrənilir və burada əsas yeri fəlsəfi tədqiqatlar tutur. Müasir sivilizasiyanın qlobal problemi kimi, tolerantlıq mədəni, dini, sosial dəyər və mənəvi ideal və ictimai hadisədir. O, mürəkkəb strukturlu sosial sistemlərin möhkəmlik və etibarlılıq göstəricisi olub, mütəlif mədəniyyətlərdə, konfessiyalarda təzahür edir. Cəmiyyətin və müxtəlif təbəqələrin tolerant şüur və davranışının fərqli formalarını, tiplərini və növlərini nümayiş etdirir. Sosial tolerantlıq ictimai və sosiomədəni kontekstdə dəyər, mədəni norma və fəaliyyət prinsipi olaraq müxtəlif funksiyaları yerinə yetirir.

Fərdi səviyyədə tolerantlıq tədricən şəxsiyyətin sosiallaşması və inkişafı prosesində təşəkkül tapır. Bu halda başqalarının baxışlarının qəbul olunmasına hazır olmaq, sivilizasion kompromisə gedə bilmək qabiliyyəti, müxtəlif rəylərin mövcudluğuna hazır olmaq, ədalət, insan hüquq və qanunları əsasında mövqelərlə razılaşmağa cəhd, ziddiyyətləri açıq həll etmək, intolerantlığın bütün təzahürlərinə qarşı durmaq əsas yer tutur.

Tolerantlıq mədəni, sosial, şəxsi dəyər kimi elm, siyasət, din institutlarının əsasını təşkil edir. Cəmiyyətdə tolerantlıq pronsiplərinə riayət olunmasına nəzarət edən institutlar hüquq, dövlət və ictimai rəydir.

Tolerantlıq cəmiyyətdə dəyər-normativ sisteminə üzvi şəkildə daxil olur. Bu zaman onu sosial kommunikasiyalar müşayiət edir. Bu kommunikasiyalar aşağıdakı səciyyələrə cavab verirlər:

- Cəmiyyətdə plüralist balans yaradır, tolerant ictimai mühit və sərbəst rəy üçün şərait yaradır;
- İnsan hüquqlarının reallaşması üçün demokratik əsas formalaşdırır;
- Müxtəlif mədəni, dini və digər qruplar arasında dialoq, sosial həmrəylik naminə kompromis təbliğ edir.

Sosial tolerantlıq qarşılıqlı əlaqənin müxtəlif tiplərini – təbii, emosional, mədəni-kommunikasion, fəaliyyətli, hüquqi növlərini yaradır.

**Nəticə/ Conslusion**

Beləliklə, tolerantlıq yalnız nəzəriyyə deyil, həm də reallıq, dünyagörüş stilidir. "Tolerantlıq" termini geniş mənalara malikdir. Bunu dini tolerantlıq haqqında da demək olar. Tolerantlıq dünya mədəniyyətlərinin zəngin müxtəlifliyinə, özünüifadə formalarına və insan fərdiliyini ifadə etmək üsullarına hörmət deməkdir. Tolerantlığın minimum səviyyəsi dözümlülükdür. Bir çox xalqların mənəvi ideyalarının tərkib hissəsi olan tolerantlıq insanların bərabərliyi və vəhdətini ifadə edərək müasir dövrdə öz təcəssümünü tapmış, insanların şüurlarında norma kimi təsbit olunmuşdur. Tolerantlıq zorakılığı, təcavüzkarlığı və onların bütün təzahür formalarını rədd edir. Konfessiyalararası ünsiyyətlə əlaqədar olan bu anlayış tədricən etniklərarası, partiyalararası, genderarası, yaşlararası və digər münasibətlərə tətbiq edilərək daha geniş, universal mahiyyət kəsb edir.

**İstifadə edilmiş ədəbiyyat**

*Azərbaycan dilində*

1.İsmayılov G. Tolerantlıq: Bildiklərimiz və bilmədiklərimiz. Bakı: Nurlar NPM, 2014, 240 s.

2.Rzayev M. Şərq-Qərb mədəniyyətlər sistemində tolerantlıq şüuru// "İslam maarifçiliyi və müasir dövr"

mövzusunda Beynəlxalq konfransın materialları, Bakı, 16-17 aprel 2015, Bakı: CBS 2016,s. 274-287[632 s.]

*Rus dilində*

3.Бесечетнова О.В. Толерантность как объект изучения гуманитарных наук.// Толерант-ность в современном обществе: опыт междисциплинарных исследований: сборник научных статей. Ярославль: издательство ЯГПУ, 2011, 357 с.

4.Караблёва А.А. Толерантность - как ценность личности в поликультурном обществе// Ярославский педагогический вестник. 2003, №1, том 2, с. 22-26.

5.Ксенофобия в современном мире. // отв. ред-ы: В.А.Ачкасов Д.З.Муманеров – Санкт-Петербург: Изд-во Санкт-Петербургский университет, 2008, 354 с.

6.Кучуради И. Философия перед лицом мировых проблем // Вопросы философии. - 2004. - № 3. С. 5-12.

7.Мутагиров Д.З. Ксенофобия как социальное явление // Вестник Санкт-Петербургского университета. Сер.6: «Философия. Культуралогия. Политология. Международные отноше-ния», 2008. Вып. 1, с. 3-11

8.Падукевич О.В. Эволюция представлений о поняти «толерантность» // Толерантность в современном обществе: опыт междисциплинарных исследований: сборник научных статей. Ярославль: издательство ЯГПУ, 2011, 357 с.

9.Хижняков А.В. Лабиринты толерантности. Харьков:ХНУ им В.Н.Каразина, 2014, 160 с.

*Referens*

3. BesechetnovaO.V. Tolerantnost kak obyekt izucheniya qumanitarnıx naukş// Tolerantnost v sovremennom obshestve: opıt mejdischiplinarnıx issledovaniy: sbornik nauchnıx statey. Yaroslav: izdatelstvo YQPU, 2011, 357 s.
4. Karablyova A.A. Tolerantnost kak chennost lichnosti v polikulturnoy obshestve// yaroslavskiy pedaqoqicheskiy vestnik. 2003, №1, tom 2, s. 22-26.
5. Ksnofobiya d sovremennom mire.// otv. Red-ı: V.A.Achkasov, D.Z.Mumanerov –Sankt-Peterburq: İzd-vo Sankt-Peterburqskiy universitet, 2008, 354 s.
6. Kuchuradi İ. Filosofiya pered lichom mirovıx problem// Voprosı filosofii - 2004. № 3. s. 5-12.
7. Mutaqirov D.Z. Ksenofobiya kak sochialnoye yavleniye//Vestnik Sankt-Peterburqskoqo universiteta. Ser.6: “Filosofiya. Kulturaloqiya. Politoloqiya. Mejdunarodnıye otnosheniya” 2008. Vıp. 1, s. 3-11
8. Padukevich O.V. Evalyuchiya predstavleniy o ponyatiy tolerantnost// Toleratnost v sovremennov obshestve: opıt mejdischiplinarnıx issledovaniy: sbornik nauchnıx statey. Yaroslav: izdatelstvo YQPU, 2011, 357 s.
9. Xijnyakov A.V. Labirintı tolerantnosti. Xarkov: XNU bv. V.N.Karazina, 2014, 160 s.

**Göndərilib: 02.04.21.** **Qəbul edilib: 05.07.21**